Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Aprel 2025

www.ereforms.gov.az
info@ereforms.gov.az

## ÇİNİN KEÇDİYİ TƏRƏQQİ YOLU BİZİM ÜÇÜN İLHAM MƏNBƏYİ OLMUŞDUR.

Çinin nümunəsi, modernləşməsi və apardığı islahatlar bir çox ölkələri ilhamlandırır. Bu, ölkələrin həmin təcrübədən necə istifadə etməsindən, müxtəlif ölkə liderlərinin digər ölkələrin müsbət təcrübələrindən necə öyrənməsindən asılıdır. Sizə deyə bilərəm ki, Çinin keçdiyi tərəqqi yolu bizim üçün ilham mənbəyi olmuşdur. Mənə gəldikdə, səlahiyyətlərimə başlayanda mənim əsas məqsədim ölkədə siyasi və sosial sabitliyi qorumaq idi.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 26 aprel 2025-ci il tarixində Pekində Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsindən**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 15

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 18

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

## 2025-ci ilin yanvar-fevral ayları ərzində qeyri-neft-qaz ixracı 771,9 milyon ABŞ dolları təşkil edib.

## Cari ilin yanvar-fevral ayları ərzində yeyinti məhsullarının ixracı 224,7 milyon ABŞ dolları olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın aprel sayını təqdim edib. İcmala əsasən, 2025-ci ilin yanvar-mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixrac isə 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə **14,7%** artaraq **771.9 milyon** ABŞ dolları təşkil edib. 2025-cü ilin yanvar-mart aylarında yeyinti məhsulları **15,1%** artaraq **224,7 milyon** ABŞ dollarına bərabər olub.

2025-ci ilin yanvar-mart aylarında ixrac olunan qiymətli və ya azqiymətli daşlar və metallar ötən ilin müvafiq dövrünə nəzərən **46,7 milyon** ABŞ dolları və ya 3,4 dəfə, qara metallar və onlardan hazırlanan məmulatlar **9,1 milyon** ABŞ dolları və ya **76,8%**, kimya sənayesi məhsulları **21,9 milyon** ABŞ dolları və ya **33,4%,** şəkər **976,3 min** ABŞ dolları və ya **18,8%**, meyvə-tərəvəz **20,8 milyon** ABŞ dolları və ya **15,7%**, alüminium və ondan hazırlanan məmulatlar **4,9 milyon** ABŞ dolları və ya **10,2%**, spirtli və spirtsiz içkilər **724 min** ABŞ dolları və ya **5,7%**, çay **74,1 min** ABŞ dolları və ya **5,1%**, bitki və

heyvan mənşəli piylər və yağları **237,9 min** ABŞ dolları və ya **4,2%**, pambıq iplik **22,1 min** ABŞ dolları və ya **0,4%** artmışdır.

2025-ci ilin yanvar-mart aylarında aqrar məhsullar **12,3%** artaraq **170,5 milyon** ABŞ dolları, aqrar-sənaye məhsulları **17,6%** artaraq **69.1 milyon** ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı **13,8%** artaraq **239,6 milyon** ABŞ dolları təşkil edib.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (**65,2 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda karbamid (**48 milyon** ABŞ dolları) ikinci, pomidor (tomat) (**44,6 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2025-ci ilin mart ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (**25 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (**17.8 milyon** ABŞ dolları) ikinci, pambıq (**15,9 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

Cari ilin ilk üç ayında Rusiya Federasiyasına **232,9** milyon ABŞ dolları, Türkiyəyə **134,3** milyon ABŞ dolları, Gürcüstana **80,6 milyon** ABŞ dolları, İsveçrəyə **69,6 milyon** ABŞ dolları, Ukraynaya isə **51,1 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2025-ci ilin mart ayında Rusiya Federasiyasına **82,1 milyon** ABŞ dolları, Türkiyəyə **51,5 milyon** ABŞ dolları, Gürcüstana **27,7 milyon** ABŞ dolları, İsveçrəyə **26 milyon** ABŞ dolları, BƏƏ isə **10,7 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.



2025 İXRAC İCMALI aprel

# 2025-Cİ İLİN YANVAR-MART AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 | 2025

+14,7%

2024: 673 mln

2025: 771,9 mln



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN MART AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025
İXRAC İCMALI
aprel

2024 2025

+31,6%

218 mln



286,9 mln

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN MART AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025 İXRAC İCMALI aprel



# 2025-Cİ İLİN YANVAR-MART AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

## (2024-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2025
İXRAC İCMALI
aprel

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**239,6 mln $**

2024/2025 **+13,8%**



**170,5 mln $**

2024/2025 **+12,3%**

**69,1 mln $**

2024/2025 **+17,6%**

# 2025-Cİ İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI aprel




Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN MART AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI aprel




Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-MART AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI aprel

| | 2025 | 2024 |
|---|---|---|
| Qızıl | 65.2 | 18.5 |
| Karbamid | 48 | 27 |
| Tomat (pomidor) | 44.6 | 45 |
| Meşə fındığı | 43 | 31.6 |
| Pambıq mahlıcı | 39.5 | 56.5 |
| Xurma | 32.3 | 27.7 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 30.4 | 27.1 |
| Metanol (metil spirti) | 28.2 | 22.8 |
| İlkin formalı propilen sopolimerləri | 24.8 | 24.8 |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-MART AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI aprel

| | 2025 | 2024 |
|---|---|---|
| Elektrik enerjisi | 24.4 | 40.6 |
| Alma | 19.3 | 16.5 |
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 19.1 | 16.4 |
| PP İlkin formalı polipropilen | 15.2 | 15.2 |
| PE Xüsusi kütləsi 0,94 və ya daha az olan ilkin formalı polietilen | 14.6 | 11.8 |
| Kərə yağı | 12.6 | 7.1 |
| Daş kömür qatranının yüksək temperaturlu qovulmanın təmizlənməmiş digər yüngül yağları və məhsulları | 12.1 | 5.8 |
| Sement klinkerləri | 11.7 | 8.3 |
| Emal olunmamış alüminium ərintiləri | 10.8 | 8.2 |

# 2025-Cİ İLİN MART AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI aprel

| Mal | 2025 | 2024 |
| --- | --- | --- |
| Qızıl | 25 | 11.7 |
| Tomat (pomidor) | 17.8 | 15 |
| Pambıq mahlıcı | 15.9 | 22.9 |
| Meşə fındığı | 15.1 | 9.2 |
| Mineral və ya kimyəvi azot gübrələri | 12 | 6 |
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 10.7 | 7.5 |
| 5 PP İlkin formalı propilen sopolimerləri | 9.8 | 2.7 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 9 | 11.1 |
| Metanol (metil spirti) | 8.5 | 7.1 |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2025-ci ilin yanvar-mart ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "MKT İstehsalat Kommersiya" MMC,"Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi,"Baku Steel Company" QSC,"P-AQRO" MMC,"LEPIN LM" Məhdud Məsuliyyətli Cəmiyyəti,"Avrora" Məhdud Məsuliyyətli Cəmiyyəti,"Export Stream" Məhdud Məsuliyyətli Cəmiyyəti,"KHAN-EL" MMC,"BİNƏ AQRO" QSC,"Sahdag Sy" Məhdud Məsuliyyətli Cəmiyyəti.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: “SOCAR Polymer” MMC,“AzerGold” QSC ,“Azəralüminium” MMC,Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi,"Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC,"Azərbaycan Hava Yolları" QSC,“Azərenerji” ATSC,Naxçıvan MR Dövlət Energetika Xidməti,“Qaradağ Şüşə Zavodu” ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2025-Cİ İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2025 İXRAC İCMALI aprel




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2025 İXRAC İCMALI aprel




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** "AzerGold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2025-ci ilin yanvar-mart aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) 4 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2025-ci ilin yanvar-mart aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 39 ölkəsinə **4 milyon** ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **65%**-ni təşkil edib. 2025-ci ilin mart ayında isə “Azərkosmos” dünyanın 39 ölkəsinə **1,3 milyon** ABŞ dolları dəyərində xidmət ixrac edib.

2025-ci ilin yanvar-mart ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **1 milyon** ABŞ dolları ilə Birləşmiş Krallıq, **890,3 min** ABŞ dolları ilə Lüksemburq, **213,4 min** ABŞ dolları ilə Nigeriya, **179 min** ABŞ dolları ilə Misir və **174 min** ABŞ dolları ilə Pakistan qərarlaşıb.

# 2025-Cİ İLİN YANVAR-MART AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 4 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2025 İXRAC İCMALI aprel



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 1 mln $ | Birləşmiş Krallıq |
| 890,3 min $ | Lüksemburq |
| 213,4 min $ | Nigeriya |
| 179 min $ | Misir |
| 174 min $ | Pakistan |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**“BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat